# Erməni mətbuatı Münxendə Prezident İlham Əliyevin Nikol Paşinyanı məğlub etdiyini bildirir

**Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr həm Azərbaycanda, həm də Ermənistanda geniş əks-səda yaradıb.**

Azərbaycan lideri İlham Əliyevin fərqli olaraq tarixi faktlara əsaslanması, probleme məntiqi yanaşması, intellektual potensialı ilə auditoriyanı ələ alması, müzakirələr zamanı Nikol Paşinyandan arqumentli danışması, tərəf müqabili üzərində psixoloji üstünlük əldə etməsi Ermənistan mətbuatının da diqqətindən yayınmayıb. Bu ölkənin “Tert.am” saytı bir neçə aparıcı ekspertin iştirakı ilə Münxen debatında Paşinyanın və Əliyevin arqumentlərini incələyib: “İlham Əliyevin özünü aparması, davamlı olaraq Paşinyanın çıxışlarına istehzası, bəzən isə açıq şəkildə gülməsi müharibədə məğlub olan tərəfin biz olduğumuz təəssüratı yaradırdı. Hətta, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov da Nikol Paşinyana güldü və bu nazirin ölkə rəhbərimizə, həm də dövlətimizə hörmət etmədiyinin göstəricisi idi. Əslində, özü ilə bu cür davranmağa şərait yaradan Paşinyan bu vəziyyətə görə təqsirkardır. İndi təsəvvür edirsinizmi, bağlı qapılar arxasında nələr baş verir? Münxendə hamı gördü ki, kulis arxasında kim diktə edir, kim isə baş əyir”.

“Tert.am” saytının müzakirəsində iki düşmən ölkə rəhbərinin Münxen debatı ilə bağlı daha sonra bildilirib ki, Azərbaycan tərəfi ənənəvi arqumentlərini təkrarladı. Paşinyan, görünür ki, buna hazır deyildi və mənasız “münaqişə hər üç xalqın: Azərbaycan, Ermənistan və Qarabağın maraqlarına cavab verməlidir” tezisindən başqa heç nə deyə bilmədi. Tarixi mübahisələri kənara qoysaq, Əliyev növbəti dəfə danışıqlarda tələbini açıq şəkildə ortaya qoydu, Paşinyan isə növbəti dəfə bunu edə bilmədi.

Erməni saytında deyilir: “Rəsmi Bakı Qarabağı öz tərkibində görmək, Şuşa və digər yaşayış məntəqələrini qaytarmaq istəyir. Bütün bunlara Əliyev mərhələli həll variantını: ətraf 7 rayonun dönüşünü, məcburi köçkünlərin öz torpaqlarına qaytarılmasını və s. istəyir. Paşinyan isə İlham Əliyevin şahin kimi göründüyü müzakirələrdə Qərbin dəstəyini almaq üçün özünü sülh göyərçini kimi təqdim edirdi. Amma bu çox təhlükəli oyundur, xüsusən Münxendə”.

Saytın materialında Paşinyanın baş nazir statusuna layiq olmadığı və bu məsuliyyəti dərk etmədiyi də vurğulanır: “Beynəlxalq auditoriya qarşısına demokrat imici ilə çıxan Paşinyan növbəti dəfə sübut etdi ki, dövlət başçısı üçün tikilən kostyum onun əyninə böyükdür”.

Ermənistan mətbuatında yayılan başqa bir məlumatda isə qeyd olunub ki, baş nazir Nikol Paşinyan Münxen konfransı çərçivəsində Moldova Prezidenti İqor Dodonla görüşdükdən sonra diqqətini stolun üstünə qoyulmuş “Korloff” markalı qələm çəkib. Qələmi əlinə alıb bir neçə saniyə təəccüblə baxan Paşinyan daha sonra onu diksindirib ölkəsindəki daha bir qarşıdurmanı xatırladan “Korloff”u yerinə qoyub.

Qeyd edək ki, Nikol Paşinyanla Ermənistanın Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyan arasında “Korloff” qələminə görə böyük qalmaqal yaşanmışdı. Belə ki, eks-prezident Serj Sarkisyanın hakimiyyəti dövründə öz səlahiyyətlərindən sui-istifadədə günahlandırılan Tovmasyanı vəzifəsindən kənarlaşdırmaq üçün ölkədə referendum keçirilməsinə belə qərar verilib. Paşinyan KM sədrinin ona xüsusi xidmətlərini təklif etdiyini bildirmiş və bu görüşün sübutu kimi Tovmasyanın ona verdiyi 500 avro dəyərindəki “Korloff” qələmini göstərmişdi.

Nəhayət, Ermənistan parlamenti Konstitusiya Məhkəməsinin yeni tərkibini seçməyi nəzərdə tutan referendumun keçirilməsi haqda qanun layihəsini qəbul edib. Referendumun martın sonu aprelin əvvəlində keçirilməsi nəzərdə tutulub. Ermənistan konstitusiyasına “Mənim addımım” fraksiyası tərəfindən hazırlanmış düzəlişlərə əsasən, KM sədrinin və üzvlərinin səlahiyyətlərinə xitam verilməsi nəzərdə tutulur.

***R.TAHİR,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2020.- 18 fevral.- S.8.